

Vasif ZÖHRABOĞLU

**DUAMIZ...**

Könlümün savaşında
Mənim ağ göyərçinim,
Barışığım, sülh yerim.
Yerlər qəribdir sənə,
Göylərə merac elə.
Tanrını gör, qayıt, gəl,
Tanrının əlləriylə
Saçını hör, qayıt, gəl.

Hörümçəklər tor qura
Şüşə minbər üstünə,
İşıqlana duamız.
Baxdığımız o ulduz,
Düşə minbər üstünə,
Tanrının süfrəsində
Qaşıqlana duamız.

Gəl ömrümüzün bütün
Günlərini yaşayaq,
Ölümə gün qalmasın.
Ölüm günümüz olmasın.
Gəl ölümə evimizin bütün
Qapılarını bağlayaq,
Biz qonaqpərvər deyilik.
Gəl Allahı sevək,
Amma Allahdan danışmayaq,
Biz peyğəmbər deyilik.

**TANRININ ƏLİNDƏN GÜZGÜSÜ DÜŞÜB...**

İlahi, sənin də minnətin olsun,
Sənin də dünyanda qalan deyiləm.
Sal məni çarmıxdan aşağı, görüm,
Mən sənin müjdəli balan deyiləm.

Sus daha, səsin də başıma düşür,
Yoxsa ki gedərəm sükutu tapıb.
Göyləri özümə çətir tutaram,
Yağış yağdıraram buludu tapıb.

Əcəb tənhalıqdı, vaxt da vaxt deyil,
Getməyə bir ünvan harasa olur,
Çiynimin üstündə qanad çəkirəm,
Çevrilib ovcumda yarasa olur.

Götürüb dünyanı, yuxu götürüb,
Düşüb yer üzünə mürgüsü, düşüb.
Min ildir Tanrı da özünü görmür,
Bəlkə də, əlindən güzgüsü düşüb.

İlahi, sənin də minnətin olsun,
Sənin də dünyanda qalan deyiləm.
Sal məni çarmıxdan aşağı görüm,
Mən sənin müjdəli balan deyiləm...

**SƏN NƏ GÖZƏL UNUDURSAN ADAMI?**

Könlüm küsdü sevgilərin dadından,
Çoxmu gördün sən mənə bir salamı?
Elə gözəl çıxıram ki yadından,
Sən nə gözəl unudursan adamı...

Necə sevdim, necə gəldin xoşuma?
Ötən günlər xatirədir bir udum.
Mən haranın külün töküm başıma,
Heç bilmirəm səni necə unudum.

Hələ ki səbrimin daş tərəfisən,
Hələ ki yaramda duz saxlayıram.
Sən mənim ömrümün qış tərəfisən,
Səndən ürəyimi buz saxlayıram.

Könlüm küsdü sevgilərin dadından,
Çoxmu gördün sən mənə bir salamı?
Elə gözəl çıxıram ki yadından,
Sən nə gözəl unudursan adamı?..

**ÇÖRƏK NÖVBƏSİ...**

Biz sevməyi çörək növbələrində öyrəndik,
Müharibə ətirli çörəklərdə tanıdıq ölümü...
Bir gülləylə beş adamı öldürən insanlar
Bir çörəklə beş adamı doyura bilmədilər...

Biz nimdaş çəkmələrdə öyrəndik yeriməyi,
Yeridiyimiz bütün yolların daşı
Çəkməmizin söküldüyü yerdən nişan alırdı ayağımızı.
Bizə yıxılmağı öyrətməmişdilər...

Bəxtini butulka qapaqlarında gəzən sadəlövh uşaqlar idik,
"Bəxtinizi bir daha sınayın"larda inanmağa başladıq Tanrıya.
Bəxtinə "xoşbəxtlik" düşən dostum hələ də butulka sexində işləyir.
Mən hələ də sınayıram.
Ümid – sabah bizi idarə edəcək Tanrıdır...

Bir də ayıldıq ki, böyük adamlarıq,
nə çörək növbələri var,
nə butulkada bəxt gəzən uşaqlığımız,
nə də cırıq çəkməmiz.
Bir də ayıldıq ki, uşaqlarımızı
sevib qovuşa bilmədiyimiz
qadınlar doğub,
həyatımızı yaratdığımız
qəhrəmanlar yaşayıb.
Heç kəs öz gerçəkləri
qədər cəsarətli deyilmiş.
Biz hələ də müharibə ətirli
çörək yeyən sadəlövh uşaqlarıq...

**ŞƏKİL ÜZLƏR**

Belə darıxdırma məni, İlahi,
Bir az tənhalıq ver baş qatmaq üçün.
Özün de, saatı neçəyə qurum
Yazdığın kor bəxti oyatmaq üçün?

Bir az yaşamağa həvəsim qalıb,
Hələ öz canımdan bezar deyiləm.
Bu şəkil üzləri asma üstümdən,
Mən sərgi evində divar deyiləm.

Sən də dindirməsən, danışdırmasan,
Axı kim oyadar sükutdan məni?
Bezmişəm göylərdə bulud olmaqdan,
Yağdır yer üzünə buluddan məni.

Alsın ürəyimi qəribsəyəndə,
Bir qadın səsi ver qulaqlarıma.
Bir doğma üz tanıt, döyüm qapısın,
İş tapım bu tənbəl ayaqlarıma.

Belə darıxdırma məni, İlahi,
Bir az tənhalıq ver baş qatmaq üçün.
Özün de, saatı neçəyə qurum
Yazdığın kor bəxti oyatmaq üçün?

**ÜRƏYİM...**

Mən bələdəm çovğunlara, qışlara,
Bəlkə, çoxu yuvasızdı mən kimi.
Pəncərəmdə yem axtaran quşlara
Böyüdürəm ürəyimi dən kimi.

Təmizlənib nifrətindən, suçundan,
Süfrələri açа bilir ürəyim.
İndi bir quş dimdiyinin ucunda
Qanadlanıb uça bilir ürəyim.

Dalğalıdır buludların ətəyi,
Su üstündə gəmi kimi görünür.
Göy üzündən insanların ürəyi
Biçilməmiş zəmi kimi görünür.

Neynəyək ki hər yuxu da çin olmur,
Sevgilərin səbrini daş görərdik.
Nə yaxşı ki, hər ürəkdən dən olmur,
Göy üzünü yoxsa ki boş görərdik!